Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 40-41 (7445-7446) • 1933-cü ildən nəşr olunur • Çərşənbə axşamı, 12 sentyabr 2017-ci il. • Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammitində iştirak etmək üçün **sentyabrın 9—10-da** Qazaxıstan Respublikasına gerçəkləşən işgüzar səfəri çərçivəsində Qazaxıstanın paytaxtı Astanada keçirilən "EXPO 2017" beynəlxalq sərgisində Azərbaycanın və Qazaxıstanın milli pavilyonları ilə tanış olub,

**Sentyabrın 10-da** isə dövlət başçısı İƏT-in elm və texnologiya üzrə birinci Sammitində iştirak edib, eyni zamanda İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç ilə görüşüb.

**7 sentyabr.** Prezident İlham Əliyev Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə dövlətimizin başçısı ölkələrimiz arasında hərbi və hərbi-texniki əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu bildirib və qeyd edib ki, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun səfəri gündəlikdə duran məsələlərin və əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradır.

Valeri Gerasimov Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının bütün sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahələrdə də uğurlu əməkdaşlıq həyata keçirdiyini deyib. O qeyd edib ki, ölkələrimiz arasında ənənəvi olaraq dostluq münasibətləri mövcuddur və Azərbaycan Rusiyanın strateji tərəfdaşıdır. Görüşdə hərbi, hərbi-texniki əməkdaşlığın yeni perspektivləri müzakirə olunub.

* * *

—Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının "Cənub Qaz Dəhlizi" layihəsinin maliyyələşdirilməsində iştirakı, Azərbaycanda nəqliyyat dəhlizlərinin inkişafı, özəl sektora dəstək və məişət tullantılarının idarə olunması sahələrində əməkdaşlıq imkanları müzakirə edilib.

* * *

—Prezident İlham Əliyev paytaxtın Nərimanov rayonunda əsaslı təmir edilən 212 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub.

Təhsil müəssisəsində yaradılan şəraitdən razı qalan dövlətimizin başçısı kollektivə yeni dərs ilində uğurlar arzulayıb.

* * *

**6 sentyabr.** Dövlətimizin başçısı İlham Əliyev Koreya Respublikası Milli Assambleyasının sədr müavini Park Cu-sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ölkə rəhbəri Koreya Respublikası Milli Assambleyasının sədr müavini Park Cu-sunun ölkəmizə səfərinin Azərbaycan-Koreya əlaqələrinin inkişafında çox mühüm rol oynayacağına əminliyini ifadə edib. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu vurğulayıb.

* * *

—Bakı gəmiqayırma zavodunda BP şirkətinin sifarişi ilə "Şahdəniz-2" layihəsi çərçivəsində inşa edilən "Xankəndi" sualtı tikinti gəmisinin təqdimat mərasimi olub.

Prezident İlham Əliyev mərasimdə iştirak edib. Qeyd olunub ki, "Xankəndi" sualtı tikinti gəmisi dünyada bu gücdə və bu funksiyaya malik 10 gəmidən biridir

* * *

**5 sentyabr.** Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla bu yaxınlarda Qurban bayramı ilə əlaqədar telefonla danışdıqlarını, hər iki dövlət başçısının təmaslarının daimi xarakter daşıdığını vurğulayıb. Azərbaycan-Gürcüstan-Türkiyə xarici işlər nazirlərinin Bakıda keçiriləcək üçtərəfli görüşünün əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu görüşün ölkələrimiz arasında ikitərəfli əlaqələrin müzakirəsi üçün də yaxşı fürsət yaratdığını qeyd edib. Hər üç ölkə arasında müzakirə olunacaq çoxlu sayda məsələlərin olduğunu deyən Prezident İlham Əliyev siyasi, iqtisadi, enerji, nəqliyyat kimi sahələrdə artıq yaxşı nəticələrin əldə edildiyini bildirib. Dövlətimizin başçısı üç ölkə arasında aparılan işlərin həm ölkələrimiz, həm də ümumilikdə bölgə üçün böyük əhəmiyyət daşıdığını qeyd edib. Bu formatda artıq bir neçə ildir ki, görüşlər keçirildiyini vurğulayan Prezident İlham Əliyev bunların həm siyasi, həm də iqtisadi məsələlərin həlli üçün önəmli üçtərəfli format kimi özünü təsdiqlədiyini və nümunəvi bir format olduğunu deyib.

Görüşdə ölkələrimiz arasında əməkdaşlıq məsələləri ilə bağlı bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Tərəqqi və sabitlik məkanı–Azərbaycan



*Bütün işlərimizin, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı yaxşı yaşamalıdır və yaxşı yaşamaq üçün imkan olmalıdır. Ona görə sosial məsələlərin həlli, xüsusilə təhsillə, səhiyyə ilə bağlı məsələlər həmişə bizim üçün prioritet olmuşdur. Son illərdə 3 mindən çox məktəb, 600-dən çox tibb mərkəzi yaradıldı və onlar bu gün insanlara xidmət göstərir. Eyni zamanda, bölgələrdə yaradılmış şərait böyük şəhərlərə miqrasiyanın da qarşısını alır. Biz artıq bunu da görürük ki, əvvəlki illərdə Bakıya bütün bölgələrdən müşahidə olunan miqrasiya indi azalıbdır, eyni zamanda, əks proses də başlayıb. İndi insanlar şəhərlərdən kəndlərə qayıdırlar. Çünki kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar yaradılıb.*

***İlham ƏLİYEV.***

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyilə ölkəmizdə həyata keçirilən uğurlu siyasət nəticəsində vətənimiz son 10 ildə bir neçə onilliyə bərabər inkişaf yolu keçmişdir. Azərbaycanın iqtisadi sahədə həyata keçirdiyi islahatlar dünyanın aparıcı beynəlxalq maliyyə-bank təşkilatları, iqtisadi-biznes qurumları tərəfindən yüksək qiymətləndirilir. Davos Ümumdünya İqtisadi Forumunun Qlobal Rəqabət Qabiliyyətliliyi İndeksi 2016-2017-ci illər hesabatında Azərbaycan 138 ölkə arasında 37-ci yerdə, Müstəqil Dövlətlər Birliyi məkanında birinci yerdə qərarlaşıb. Rəqəmlərə müraciət edək: 2007-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri 5 milyard 770 milyon 900 min manat olmuşdusa, 2016-cı ildə 15 milyard 955 milyon manata, valyuta ehtiyatı 3,7 milyard dollardan 40,8 milyard dollara yüksəlmişdir.

On ildə Azərbaycanda müxtəlif sahələrə 200 milyardan çox xarici və daxili investisiya qoyulmuşdur. Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahib olan respublikamızın iştirakı ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars «Şərq-Qərb», «Şimal-Cənub» nəqliyyat, «Cənub» qaz dəhlizi, «Şahdəniz» Cənubi Qafqaz kəməri TANAP və TAP kimi layihələrin həyata keçirilməsi isə bir daha sübut edir ki, ölkəmiz son illərdə böyük inkişaf yolu keçib.

Ölkəmizdə sənayenin, kənd təsərrüfatının inkişafı üçün həyata keçirilən böyük investisiya layihələri işsizlik probleminin həllinə, yoxsulluğun azalmasına, insanların sosial problemlərinin həllinə, rifah halının yüksəlməsinə səbəb olub. Azərbaycanda yoxsulluq 40 faizdən 5 faizə düşüb. Bu illər ərzində 3 mindən çox məktəb, 600-dən çox tibb müəssisəsi tikilib və ya yenidən qurulub. Bölgələrdə 40-dan çox olimpiya idman kompleksi əhalinin istifadəsinə verilib.

Azərbaycan bütün parametrlərinə görə dünya turizm təşkilatlarının diqqətini cəlb edən ölkəyə çevrilib. Burada dünya standartlarına uyğun 300-dən artıq müasir mehmanxana, 6 yeni hava limanı tikilib. Bu sahədə rayonumuz bölgələr arasında qabaqcıl yerdədir. Son 10 ildə rayonda 19 ədəd dünya standartlarına cavab verən mehmanxana və mehmanxana tipli obyekt tikilib istifadəyə verilib. Qəbələ Beynəlxalq Hava Limanı bölgələrdəki hava limanlarının ən işləyidir.

Ölkəmizdə əhalinin bütün kommunal problemləri həll edilib. Təkcə bu ilin avqust ayında ölkə Prezidenti bölgələrdə və Bakı şəhəri ətrafı qəsəbə və kəndlərdə su-kanal, yol və abadlıq işlərinin daha da inkişafı üçün 22 sərəncam imzalayıb.

Azərbaycanda əhalinin mavi yanacaqla təminatı-qazlaşma artıq 93 faizə çatmışdır.

Ölkə Prezidentinin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2004-cü ildən başlayaraq respublikamızda regionların sosial-iqtisadi inkişaf proqramları həyata keçirilir. Hazırda 2014-2018-ci illəri əhatə edən 3-cü proqramın icrası uğurla davam edir.

Qürurla deyə bilərik ki, Prezident İlham Əliyevin iqtisadi strategiyası sayəsində Azərbaycan Respublikası qüdrətli dövlətə çevrilib. Bununla bərabər Azərbaycan geosiyası arenada sülh, tərəqqi və sabitlik, iqtisadi əməkdaşlıq mərkəzi kimi daha geniş şöhrət tapır.

**«Qəbələ»**